Adımız məfkurəmizdir

11 - 17 iyul 2023-cü il

Türküstan

www.turkustan.az



Aydın Qasımlı

Filologiya üzrə fəlsəfə doktoru

Bizim yazar



**Hər bir millətin bu günü və gələcəyi üçün tarix,xüsusilə mədəniyyət tarixi yazmaq o tarixi və mədəniyyəti yaratmaq qədər dəyərlidir. "Tarix yazan tarixi yaradana qərəzsiz, səmimi yanaşmalıdır". (Atatürk).**

(əvvəli ötən sayımızda)

# Bütün xalqların tarixinə möhürünü vurmuş Türklər

***Bir xristian müəllifi olan Urfalı Mathieu yazır: 'İnsanların ən ədalətlisi, ən ağıllı və qüdrətlisi olan Məlikşah (Səlcuqlu sultanı Məlikşah nəzərdə tutulur-A.M.) bütün insanlara və o cümlədən də xristianlara qarşı bir ata kimidir. Bütün rum və ermənilər öz arzuları ilə onun hakimiyyəti altına girdilər"(Urfalı Mathieu).***

Türklər İslamı qəbul etdikdən sonra İslam dünyasında hökm sürən şiddətli məzhəb çatışmalarına da son vermişlər. Digər İmperiyalarda yabançı irq və din mənsublarına qarşı yapılmış vəhşətlər yerinə Türk İmperatorluqları əksinə olaraq ədalət, şəfqət, yabançı qovm və dinlərə hürriyyət örnəkləri ilə doludur. Orta əsr xristian tarixçisi Siryani Mixael yazır: "Türklər intriqaçı və Rafizi Rumlar kimi kimsənin dininə və inancına qarışmır, heç bir basqı və zülm düşünmürlər" (Mixael Siryani). Bir xristian din xadimi olan Hizkiyal Reyğəmbər yazır: " Allah Rumların (Bizanslılar nəzərdə tutulur-A.M.) pisliklərinə və zülmlərinə qəzəbləndiyi üçün Türkləri bu ərazilərə (Anadolu nəzərdə tutulur-A.M.) hakim etdi"(Hizkıyal Peyğəmbər).

***XVIII əsr fransız tarixçisi M.Baudier yazır: 'Türklər mərhəmət, şəfqət və insanlara yardım etməkdə bütün millətlərdən üstündürlər" (Baudier M., Histoire de la religion des Turcs, Paris 1625).***

***Türklərin tarixən yabançı qövm və dinlərə hörmətlə yanaşması mövzusu yalnız Türk tarixi üçün deyil, dünya tarixi baxımından da əhəmiyyətli olduğundan onların üzə çıxarılması vacibdir. Əks təqdirdə tarixin bu mühüm amilləri də tarixə gömülmüş olaraq qalacaq.***

Əgər Türklərin Cahan hakimiyyəti ədalətə, hakimiyyətləri altında olan xalqların arzu və istəklərinə, insanlıq duyğularına əsaslanmasaydı, Türk qüdrətinin tarix boyu yaşaması da mümkün olmazdı. Türklərin Asiya qitəsinin böyük bir hissəsində fasilələrlə də olsa 20 min il, Hindistanda, Yaxın Şərqdə min il, Afrika qitəsinin şimalında dörd yüz il, Şərqi Avropada üç yüz il hökmranlıq etməsi məhz onların digərlərindən fərqli olaraq hakimiyyətləri altında olan xalqlara tarixdə İmperatorluq yaradan Perslər, Romalılar, Ərəblər, Çinlilər, Ruslar və İngilislər kimi ikinci, üçüncü dərəcəli xalq və əsir kimi yaşamamalarının, onları istismar etməmələrinin nəticəsidir.

Türk təfəkkürü tarixən "Dünya nizamı, din və dövlət, vətən və millət kimi müqəddəs ideallara əsaslandığından bu məfkurələrin zühurunda maddi və mənəvi qüdrətin bir-biri ilə çulğalaşması önəmli rol oynamışdır. İctimai şərtlər, hərbi qüdrət, özünə inamla yanaşı, Türk bəyləri ilə birlikdə Türk xanımlarının da siyasi və hüquqi mövqeləri Türk dövlətçilik tarixində mühüm bir amil kimi özünü göstərmişdir. XI əsr Səlcuqlu Sultanları Alp Arslan və Məlikşahın vəziri olmuş məşhur "Siyasətnamə" əsərinin müəllifi göstərir ki: "Əcəm hökmdarları dövründə qadınların siyasi bir təsiri olmamışdır. Türküstan xaqanları və Türkmən padişahları (Səlcuqlu sultan- ları nəzərdə tutulur-A.M.) dövlət işlərində qadınların fikirlərini üstün tuturlar" (Nizam ül-Mülk, Siyasətnamə).

***Türk İmpratorluqları siyasi istiqrarı, ictimai ədaləti, bünövrəsinin sağlamlığı, xalqlar və dinlər arasında yaratdığı ahəngi, dünya nizamı düşüncəsi, çox yüksək idarəçilik bacarığı, qüdrətli ordusu, dövrünə görə yüksək hərbi texnikası, geniş hüquqi fəaliyyətləri, ədəbiyyat, sənət və memarlıqda vücuda gətirdikləri ehtişamlı əsərləri və cahanşümul mədəniyyət- ləri və ən başlıcası, Türklərin "Allahın ordusu" inancına inanmaları ilə tarixdə müstəsna mövqe qazanmışlar.***



Tarixi Türk İmperatorluqları digər xalqların yaratdığı impratorluqlardan mədəniyyət baxımından da əsaslı şəkildə fərqlənir. Belə ki, tarixdə bəlli böyük İmperatorluqlardan sayılan Əhəmənilər (e.ə.522-330-cu illər), Makedoniyalılar, Roma, Bizans, Sasani İmperatorluqları, Ərəb Xila- fəti, Rusiya, Böyük Britaniya İmperatorluqlarından fərqli olaraq Türklərin yaratdıqları istər "Tufan"dan əvvəl Birinci Böyük Turan, istər "Tufan"dan sonra İkinci Böyük Turan, Sak (Skif), Midiya və Böyük Hun, istərsə də bizim erada Qərbi Hun, Ağ Hun, Avar, Böyük Göy Türk, İkinci Göy Türk, Xəzər, Qəznəli, Səlcuqlu, Xarəzmşah, Böyük Türk-Moğol, Qızıl Orda, Elxanlı, Teymurlu, Osmanlı, Babur, Səfəvi və Əfsar kimi böyük Türk İmperatorluqları genişlədikcə və yüzlərlə xalq və etnik qrupları öz siyasi hakimiyyəti altına aldıqca öz yaşam həyatı və milli mədəniyyətinə zərərli olan, lakin ayrı-ayrı mədəniyyətləri bir-birinə calayaraq universal bir bəşəri mədəniyyət yaratmışlar. Bunun başlıca səbəblərindən biri Türklərin daima məğlublara qarşı şəfqətli davranmaları, özlərini Tanrı tərəfindən təyin edilmiş xalqlararası bir sülh təmsilçisi saymaları olmuşdur. Bunu Türk hökmdarlarının dilindən deyilmiş və tarixi mənbələrdə öz əksini tapmış fikirlər də sübut edir. Belə ki, Sultan Səncərin: "Allah bu dünyanı bizə əmanət etmişdir. Bütün əmirlər və hökmdarlar bizim məmurlarımızdır", Sultan Səlim Yavuzun: "Biz Allah tərəfindən əmr olmadıqca bir səfərə getmərik", Alp Arslanın: "Biz təmiz müsəlmanlarıq, bidət nədir bilmərik. Bu səbəbdədir ki, Allah həqiqi Türkləri əziz etdi", Sultan Mahmudun: "Təbəələrimdən müsəlmanları ancaq camidə, xristianları kilsədə, musəviləri havrada tanımaq istərəm", Məlikşahın: "Biz" Nizamiyyə mədrəsəsi"ni bir məzhəbi qorumaq üçün deyil, elmi yüksəltmək məqsədi ilə yaratdıq. Məzhəblər arası bir təfriqə istəmiyoruz", Sultan Mehmet Fatehin: "Dünyada tək bir din, tək bir dövlət, tək bir hökmdar olmalı, İstanbul da Cahanın paytaxtı olmalıdır", Oğuz Xaqanın: "Ey oğullarım! Çox savaşdım, çox yaş- landım. Göy Tanrıya borcumu ödədim", İstəmi Xaqanın: "Atalarımızdan eşitdik ki, Qərb İmperatorluğundan (Roma İmperatorluğu nəzərdə tutulur-A.M.) elçilər gəldiyi zaman bu bizim üçün artıq Yer üzünü fəth edəcəyimizə dəlalət edər"- kimi fikirlərlə- TÜRKLƏR Uzaq və Yaxın Şərq ölkələri, Asiya və Avropa qitələri arasında ticarət, din və mədəniyyət əlaqələri yaradaraq dünya mədəniyyəti tarixinə əvəzsiz xidmət göstərmişlər.

Türklər fəth etdikləri ölkələrin xalqlarının yaratdıqları milli mədə-niyyətlərindən ən yaxşılarını əxz edərək bir-biri ilə çulğalaşdırmış, bəşəri bir mədəniyyət yaratmışlar.

**Türk İmpratorluqları siyasi istiqrarı, ictimai ədaləti, bünövrəsinin sağlamlığı, xalqlar və dinlər arasında yaratdığı ahəngi, dünya nizamı düşüncəsi, çox yüksək idarəçilik bacarığı, qüdrətli ordusu, dövrünə görə yüksək hərbi texnikası, geniş hüquqi fəaliyyətləri, ədəbiyyat, sənət və me- marlıqda vücuda gətirdikləri ehtişamlı əsərləri və cahanşümul mədəniyyət- ləri və ən başlıcası, Türklərin "Allahın ordusu" inancına inanmaları ilə tarixdə müstəsna mövqe qazanmışlar.**

***Tanrı yaratdığı hər bir insan kimi formalaşmış hər bir xalqın da istək və arzularını yerinə yetirmiş, bununla da onların bəşər cəmiyyətindəki tarixi yerini müəyyənləşdirmişdir. Tanrı bu müəyyənləşdirmədə birinci yeri də məhz Türklərə bəxş etmişdir. Türklər tək millətdir ki, Yer kürəsindəki bütün xalqların tarixinə öz möhürünü vurmuşdur.***

***Tanrı Türkü qorusun!***

Oxu, oxut, abunə ol!